**Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və onun yanında yaradılmış dövlət xidmətləri haqqında əsasnamələrin təsdiq edilməsi barədə" 2005-ci il 20 aprel tarixli 226 nömrəli və "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olan bəzi qurumların əsasnamələrinin təsdiq edilməsi haqqında" 2015-ci il 23 iyul tarixli 571 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və onun yanında yaradılmış dövlət xidmətləri haqqında əsasnamələrin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 4, maddə 301; 2006, 2, maddə 91, 5, maddə 397; 2007, 2, maddə 87; 2008, 6, maddə 488, 11, maddə 970; 2009, 10, maddə 779, 12, maddə 983; 2011, 2, maddə 85; 2014, 6, maddə 638; 2015, 2, maddə 132, 7, maddə 840; 2016, 12, maddə 2095; 2017, 3, maddə 378, 6, maddə 1079; 2018, 6, maddə 1233, 7 (I kitab), maddə 1511; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 1 mart tarixli 568 nömrəli və 10 aprel tarixli 619 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında "və onun yanında yaradılmış dövlət xidmətləri haqqında əsasnamələrin" sözləri "haqqında Əsasnamənin" sözləri ilə əvəz edilsin;

1.2. preambuladan "və onun yanında yaradılmış dövlət xidmətlərinin" sözləri çıxarılsın;

1.3. 3-cü və 4-cü hissələr ləğv edilsin.

2. "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olan bəzi qurumların əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 571 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 7, maddə 839; 2017, 9, maddə 1651; 2018, 1, maddə 42, 4, maddə 656, 12 (I kitab), maddə 2569) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında "Nazirliyinin strukturuna daxil olan bəzi qurumların əsasnamələrinin" sözləri "Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi haqqında Əsasnamənin" sözləri ilə əvəz edilsin;

2.2. preambulada "Nazirliyinin strukturuna daxil olan bəzi qurumların" sözləri "Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin" sözləri ilə əvəz edilsin;

2.3. 2-ci və 3-cü hissələr ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 may 2019-cu il
702